# "AZƏRXALÇA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**31 dekabr 2019-cu il tarixinə**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

## "AZƏRXALÇA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSTİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI....1
MÜSTƏQİL AUDİTORUN RƏYI.... 2-3

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat....4
Mənfəət və ya Zərər və Digər Məcmu Gəlirlər haqqında Hesabat....5
Kapitalda Dəyişikliklər haqqında Hesabat....6
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat....7

1. Cəmiyyət və Onun Əsas Fəaliyyəti....8
2. Əməliyyat Mühiti....8
3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinspiləri....9
4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr....20
5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi....22
6. Pul və Pul Vəsaitlərinin Ekvivalentləri....26
7. Məhdudiyyət Qoyulmuş Pul Vəsaitləri....27
8. Müddətli Əmanətlər....27
9. Mal və Material Ehtiyatları....27
10. Qabaqcadan Ödəmələr....27
11. Digər Cari Aktivlər....27
12. Əmlak, Tikili və Avadanlıqlar....28
13. Qeyri-Maddi Aktivlər....29
14. Mənfəət Vergisindən başqa Ödənilməli Vergilər....29
15. Nizamnamə Kapitalı....29
16. Əlavə Kapital Qoyuluşu....30
17. Satış....30
18. Satış və Paylama Xərcləri....30
19. İnzibati və Əməliyyat xərcləri....31
20. Mənfəət Vergisi....31
21. Əlaqəli Tərəflərlə Əməliyyatlar....33
22. Təəhhüdlər və Şərti Öhdəliklər....33
23. Maliyyə Alətlərinin Ədalətli Dəyəri....34
24. Maliyyə Risklərinin İdarə Edilməsi....34
25. Hesabat Dövründən Sonra Baş Vermiş Hadisələr....36

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatının 2-ci səhifəsində göstərilmiş auditorların rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Azərxalça" ASC-nin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Cəmiyyətin 31 dekabr 2019-cu il tarixində bitən il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Cəmiyyətin fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2019-cu il tarixində bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 25 yanvar 2022-ci ildə təsdiq edilmişdir.

Rəhbərlik adından:

| | |
|---|---|
| Emin Məmmədov<br>İdarə Heyətinin Sədri | Zaur Əyyubov<br>Baş Mühasib |
| Azərbaycan Respublikası, Bakı | Azərbaycan Respublikası, Bakı |

ATC

ATC Services
Audit-Tax-Consulting

Demirchi Tower,
37 Khocalı pr.,
AZ1025, Baku, Azerbaijan
Tel: +994552115752

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

"AZƏRXALÇA" ASC-nin Səhmdarına və Rəhbərliyinə:

### Rəydən imtina

Biz "AZƏRXALÇA" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatın və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Biz Cəmiyyətin maliyyə hesabatlarına dair rəy bildirmirik. "Rəydən imtina üçün əsaslar" bölməsində təsvir edilmiş məsələnin vacibliyi üzündən bu maliyyə hesabatlarına dair auditor rəyini əsaslandırmaq üçün bizim yetərli münasib audit sübutları əldə etməyə imkanımız olmamışdır.

### Rəydən imtina üçün əsaslar

Biz Cəmiyyətin auditoru kimi 31 dekabr 2019-cu il tarixindən sonra təyin edildik və buna görə də 31 dekabr 2019-cu il tarixinə 10,751,757 AZN qalığı olan mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə edə bilmədik. Biz digər audit prosedurlarını tətbiq etməklə 31 dekabr 2019-cu il tarixinə mal-material ehtiyatlarının kəmiyyətinə dair əminlik əldə edə bilmədik. Mal-material ehtiyatlarının qalıqları maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi olduğu üçün biz mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda göstərilmiş 31 dekabr 2019-cu il tarixində bitən il üzrə zərərlə bağlı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda göstərilmiş əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin hərəkəti ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 09 yanvar 2021-ci il tarixində aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində ciddi qanun və maliyyə pozuntuları həyata keçirərək "Azərxalça" ASC-nin qanuni mənafelərinə mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr əsasında Cəmiyyətin idarə heyətinin sədri Muradov Vidadi Aydın oğluna ittiham irəli sürülmüşdür. Daha sonra Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin 19 yanvar 2021-ci il - 30 aprel 2021-ci il tarixlərdə Cəmiyyətdə apardığı yoxlama nəticəsində tərtib edilən 12 avqust 2021-ci il tarixli Aktla Cəmiyyətin idarə heyətinin sədrinin ciddi qanun və maliyyə pozuntuları aşkar edilmişdir. Daha sonra materiallar üzrə Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarsı Mübarizə Baş İdərəsində 202026265 №-li cinayət işi üzrə istintaq yekunlaşaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir. Mövcud cinayət işinin materiallarında olan halların və iddia məbləğlərinin xüsusilə külli miqdar təşkil etdiyindən "Azərxalça" ASC-nin maliyyə hesabatlarına mümkün təsirinin həm əhəmiyyətli həm də nüfuzedici xarakterdə ola bildiyinə əsaslanaraq, qeyri-müəyyənliklərin potensial qarşılıqlı əlaqəsi və onların maliyyə hesabatlarına mümkün kumulyativ təsirini formalaşdırmaq hesabat verildiyi tarixə qeyri-mümkündür.

Qeyd olunan şübhələrlə bağlı 20 sentyabr 2021-ci il tarixli 1(101)-205/2022 nömrəli, 22 dekabr 2021-ci il tarixli 3(060)-75/2022 nömrəli, 07 yanvar 2022-ci il tarixli 3(005)-128/2022 nömrəli məhkəmə işləri davam etdirilir.

Biz, 31 dekabr 2019-cu il tarixinə 81,353,599 AZN məbləğində olan əmlak, tikili və avadanlıqların ilkin dəyərindən və bunun nəticəsində müvafiq köhnəlmə hesablamalarından və vergi təsirlərindən kifayət qədər əmin olmaq üçün lazımi və müvafiq audit sübutu əldə edə bilməmişik.

Qeyd olunan məsələlər nəticəsində uçota alınmış və ya uçota alınmamış ehtiyatlar, debitor borcları, kreditor borcları və digər cari öhdəlikləri, habelə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar üzrə qeyri-müəyyənliklərin potensial qarşılıqlı əlaqəsi və onların maliyyə hesabatlarına mümkün kumlyativ əhəmiyyətli həm də nüfuzedici təsirini və baş verəcək hansısa düzəlişlərin tələb olunub-olunmadığını müəyyən etməyə imkanımız olmamışdır.

Uçot siyasətinə uyğunsuzluğun təsiri bu hesabat tarixinə təyin edilə bilməz.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.

- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Cəmiyyət fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

**ATC Services MMC**
**Direktor**
**Orxan Rzayev**

"ATC SERVICES" MMC * "ATC SERVICES" LLC * ATC

**25 yanvar 2022-ci il**
**Bakı, Azərbaycan Respublikası**

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzun müddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 12 | 47,185,396 | 33,932,843 |
| Tikilməkdə olan Binalar | 12 | 27,325,412 | 16,714,066 |
| Qeyri-maddi aktivlər | 13 | 9,127 | 9,620 |
| **Cəmi Uzun müddətli aktivlər** | | **74,519,935** | **50,656,529** |
| **Cari Aktivlər** | | | |
| Mal və material ehtiyatları | 9 | 10,751,758 | 4,543,738 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 6 | 20,907,336 | 20,720,954 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 7 | 1,044,642 | - |
| Digər cari aktivlər | 11 | 2,684 | 3,384 |
| Qabaqcadan ödəmələr | 10 | 317,819 | 2,419,106 |
| **Cəmi cari aktivlər** | | **33,024,239** | **27,687,182** |
| **CƏMİ AKTİVLƏR** | | **107,544,174** | **79,144,417** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 15 | 15,000,000 | 15,000,000 |
| Əlavə kapital qoyuluşu | 16 | 102,082,291 | 67,979,513 |
| Yığılmış zərər | | (10,176,732) | (4,835,040) |
| **CƏMİ KAPİTAL** | | **106,905,559** | **78,144,473** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər və DSMF öhdəlikləri | 14 | 162,280 | 108,231 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | | 476,335 | 91,007 |
| **Cəmi cari öhdəliklər** | | **638,615** | **199,238** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **638,615** | **199,238** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **107,544,174** | **78,343,711** |

25 yanvar 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Emin Məmmədov
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası "Azərxalça" ASC
Republic of Azerbaijan "Azerkhalcha" OJSC

Zaur Əyyubov
Baş Mühasib

8-37-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

| *Azərbaycan Manatı ilə* | **Qeyd** | **31 dekabr 2019-cu il tarixində bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixində bitən il üzrə** |
|---|---|---|---|
| Satışdan gələn gəlir | 17 | 310,554 | 424,095 |
| Satışın maya dəyəri | 17 | (381,891) | (540,049) |
| **Ümumi zərər** | | **(71,337)** | **(115,954)** |
| Satış və paylama xərcləri | 18 | (22,156) | (89,567) |
| İnzibati və əməliyyat xərcləri | 19 | (5,115,454) | (3,913,715) |
| **Əməliyyat zərəri** | | **(5,208,947)** | **(4,119,236)** |
| Xarici valyuta əməliyyatlarından xalis gəlir | | (132,745) | (49) |
| Faiz gəliri | 8 | - | 108,334 |
| **Vergidən əvvəlki zərər** | | **(5,341,692)** | **(4,010,951)** |
| Mənfəət vergisi xərci | 20 | - | (144,428) |
| **İl üzrə zərər** | | **(5,341,692)** | **(4,155,379)** |
| **Digər məcmu gəlirlər** | | **-** | **-** |
| **İl üzrə cəmi məcmu zərər** | | **(5,341,692)** | **(4,155,379)** |

25 yanvar 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Emin Məmmədov
İdarə Heyətinin Sədri

Zaur Əyyubov
Baş Mühasib

***"AZƏRXALÇA" ASC***
***31 DEKABR 2019-CU İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ***
***KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT***

| *Azərbaycan Manatı ilə* | **Qeyd** | **Nizamnamə kapitalı** | **Əlavə kapital qoyuluşu** | **Yığılmış zərər** | **Cəmi kapital** |
|---|---|---|---|---|---|
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | | **15,000,000** | **30,137,800** | **(679,661)** | **44,458,139** |
| Əlavə kapital qoyuluşu | 16 | - | 37,841,713 | - | **37,841,713** |
| Cəmi məcmu zərər | | - | - | (4,155,379) | **(4,155,379)** |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | | **15,000,000** | **67,979,513** | **(4,835,040)** | **78,144,473** |
| Əlavə kapital qoyuluşu | 16 | - | 34,102,778 | - | **34,102,778** |
| Cəmi məcmu zərər | | - | - | (5,341,692) | **(5,341,692)** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **15,000,000** | **102,082,291** | **(10,176,732)** | **106,905,559** |

25 yanvar 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Emin Məmmədov
Direktor

Zaur Əyyubov
Baş Mühasib

Azərbaycan Respublikası "Azərxalça" ASC
Republic of Azerbaijan "Azerkhalcha" OJSC

8-37-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

## *PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT*

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Vergidən əvvəlki zərər | | (5,341,692) | (4,010,951) |
| Düzəlişlər: | | | |
| Faiz gəliri | 8 | - | (108,334) |
| Əmlak tikili və avadanlıqlar və qeyri-maddi aktivlər üzrə köhnəlmə və amortizasiya xərcləri | 12,13 | 3,721,994 | 2,309,949 |
| Xarici valyuta əməliyyatları üzrə kurs fərqlərindən zərər | | 132,745 | 49 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **(1,486,953)** | **(1,809,287)** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Qabaqcadan ödəmələr üzrə xalis (artım)/azalma | 10 | (76,459) | 35,815 |
| Mal və material ehtiyatları üzrə xalis (artım) | 9 | (6,208,020) | (2,126,202) |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 7 | (1,120,253) | - |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər və DSMF öhdəliklərində artım | 14 | 54,049 | 3,259 |
| Ticarət və digər kreditor borcları üzrə xalis artım | | 385,328 | 89,234 |
| Digər cari aktivlərdə artım | 11 | 700 | 61,248 |
| **Vergidən əvvəl əməliyyat fəaliyyətindən xaric olan xalis pul vəsaitləri** | | **(8,451,608)** | **(3,745,933)** |
| Ödənilmiş mənfəət vergisi | 20 | - | (11,067) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(8,451,608)** | **(3,757,000)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müddətli əmanətlərin geri alınması | 8 | - | 3,000,000 |
| Əldə edilmiş faiz gəliri | 8 | - | 110,667 |
| Əmlak, tikili və avadanlıqların alınması | 12 | (14,795,808) | (23,205,582) |
| Tikilməkdə olan Binalar | 12 | (10,611,346) | (16,714,066) |
| Qeyri-maddi aktivlərin alınması | 13 | (500) | (675) |
| **İnvestisiya fəaliyyətindən xaric olan xalis pul vəsaitləri** | | **(25,407,654)** | **(36,809,656)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əlavə kapital qoyuluşu | 16 | 34,102,778 | 37,841,713 |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **34,102,778** | **37,841,713** |
| *Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri* | | (57,134) | - |
| **Pul və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/(azalma)** | | **186,382** | **(2,724,943)** |
| **İlin əvvəlinə pul və pul vəsaitlərinin ekvivalentləri** | 6 | **20,720,954** | **23,445,897** |
| **İlin sonuna pul və pul vəsaitlərinin ekvivalentləri** | 6 | **20,907,336** | **20,720,954** |

25 yanvar 2022-ci il tarixində İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Emin Məmmədov
İdarə Heyətinin Sədri

Zaur Əyyubov
Baş Mühasib

8-37-ci səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

## 1. Cəmiyyət və Onun Əsas Fəaliyyəti

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikası Prezidentinin 2032 saylı sərəncamının 6.1 bəndinə müvafiq olaraq 5 may 2016-cı il tarixində təsis edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasının Bakı şəhərində yerləşir. Cəmiyyət açıq səhmdar cəmiyyətidir və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmişdir. Cəmiyyətin nizamnaməsi və strukturu 4 oktyabr 2016-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 375 saylı qərarı ilə təsdiq edilmişdir.

Cəmiyyətin əsas fəaliyyətinə xalça və xalça məmulatlarının istehsalı və satışı, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, habelə bu sahənin inkişafı ilə bağlı digər işlər daxildir.

Cəmiyyətin nizamnamə kapitalı 15 000 000(on beş milyon) manat olmaqla Azərbaycan Respublikası Hökumətinə ("Hökumət") məxsusdur və hər birinin nominal dəyəri 1 (bir) manat olan 15 000 000(on beş milyon) ədəd adi səhmlərdən ibarətdir. Cəmiyyətin hüquqi ünvanı: Sumqayıt şəhəri, Kimyaçılar küçəsi, ev 1, AZ5002

31 dekabr 2019-cu il tarixinə işçilərin sayı 1823 nəfər (31 dekabr 2018-ci il tarixinə 1478 nəfər) olmuşdur.

## 2. Əməliyyat Mühiti

Cəmiyyət fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir və nəticədə, Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

2014-cü ilin iyun ayının ortalarından etibarən neftin qiymətində qəfil enmə müşahidə olunmağa başladı və neft sahəsindəki gəlirlərin, dolayısı ilə illik büdcə gəlirlərinin azalması, neft istehsalatının aşağı enməsi və bu sahədə aparılan əməliyyatların dayandırılması ilə nəticələndi.

Qlobal neft qiymətlərinin aşağı səviyyədə olması, həmçinin manatın 2015-ci ildəki ikili devalvasiyası iş mühitindəki qeyri-müəyyənliyin səviyyəsini son illərdə daha da artırdı.

2017-ci ilin 12 yanvar tarixindən, Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə sisteminə sərbəst keçid imkanı üçün kommersiya banklarına tətbiq etdiyi 4% məzənnə dəhlizini ləğv etdi, 2018-ci il ərzində isə manatın dəyəri sabitləşməyə başladı.

2019-cu ildə AMB-nin İdarə Heyəti faiz dəhlizinin parametrlərini 8 dəfə nəzərdən keçirdi. Ölkədə uçot dərəcəsi tədricən 9,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddi 11,75%-dən 9,25%-ə, aşağı həddi isə 7,75%-dən 5,75%-ə endirildi.

Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri ilk dəfə 40 milyard dolları keçdi. Bu, Azərbaycanın valyuta ehtiyatlarının da məbləğinə təsir etdi və 4 illik fasilədən sonra ölkə yenidən 50 milyard dollardan artıq ehtiyata malik oldu.

Bu il həmçinin Prezidentin imzaladığı "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmana əsasən xarici valyutada əsas məbləği 10 000 ABŞ dollarına qədər olan əsas kredit borclarının devalvasiya hesabına artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənildi. Bu proses təxminən 900 min insanı əhatə etdi. Onlardan 600 mininə kompensasiya, 300 mininə isə illik cəmi 1%-lə, 5 il müddətinə milli valyutada yeni kredit müqaviləsi bağlamaq təklif olundu.

## 2. Əməliyyat mühiti (davamı)

İl ərzində vətəndaşlara 645 milyon manat kompensasiya ödənildi, 123 min borcalanın 242 milyon manat məbləğində kreditləri güzəştli şərtlərlə restrukturizasiya edildi, 205 milyon manat faiz və dəbbə pulu silindi, 42 min borcalanın kreditləri tam bağlandı.

2019-cu ildə Azərbaycanda minimum əmək haqqı və pensiya ilk dəfə yaşayış minimumunu üstələdi. Belə ki, Prezidentin imzaladığı sərəncamlara əsasən, maaşların aşağı həddi iki mərhələdə 92 %, pensiyaların aşağı həddi isə yenə də iki mərhələdə 72 % artırıldı. Əmək haqqı artımları dövlət sektorunda 1 milyon nəfəri, özəl sektorda isə 350 min nəfəri əhatə etdi. Pensiya artımları isə 750 min nəfərə şamil edildi.

2019-cu ildə Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında 34-cü yeri tutdu və dünyanın 20 ən islahatçı ölkəsindən biri oldu. Aparılan islahatların ölkə iqtisadiyyatına müsbət təsirləri gözlənilməkdədir.

Maliyyə hesabatları Rəhbərliyin Azərbaycan biznes mühitinin Cəmiyyətin əməliyyatlarına və maliyyə vəziyyətinə təsirini qiymətləndirməsini əks etdirir. Rəhbərlik makro-iqtisadi amillərin gözlənilən dəyişikliklərinin Cəmiyyətin əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü götürmək iqtidarında deyil və mövcud şəraitdə Cəmiyyətin fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri

### Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri

*Uyğunluq prinsipi*

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş 31 dekabr 2019-cu il tarixinə qüvvədə olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmışdır.

*Təqdimatın əsasları*

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

*Funksional və hesabat valyutası*

Cəmiyyətin funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

31 dekabr 2019-cu il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları =1.7000 AZN, 1 Avro = 1.9035 AZN və 1 Rusiya rublu = 0.0274 AZN (31 dekabr 2018: 1 ABŞ dolları =1.7000 AZN, 1 Avro = 1.9468 AZN və 1 Rusiya rublu = 0.024 AZN).

*Fasiləsizlik prinsipi*

Maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

**3 Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi fərdi maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən Cəmiyyətin davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərinin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

***Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur:***

Ədalətli dəyər - qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir.

Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Cəmiyyət mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Cəmiyyət müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv və öhdəliyin xarakteristikalarına uyğundur.

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər və öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir;
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla ( qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur;
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Cəmiyyət tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları***

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Cəmiyyət qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər.

**3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)***

Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə Təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər-hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər-hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir (gəlir və xərclərin uçotu siyasətinə baxın).

**3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

***Maliyyə aktivləri***

***Maliyyə alətlərinin ilkin tanınması***

Ticarət olunan qiymətli kağızlar, törəmə alətlər və digər ədalətli dəyəri mənfəət və ya zərərdə tanınan maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə ölçülür. Digər maliyyə alətləri, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

***Maliyyə alətlərinin təsnifatı***

İlkin tanımada maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər hesabına ədalətli dəyərdə ("MZHƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZHƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZHƏD kimi müəyyən edilmədikdə, DMGƏD-də ölçülür:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivlər MZHƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZHƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

**3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

Müəssisələr düzəlişləri 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün erkən könüllü tətbiqə icazə verilməklə tətbiq edir. Cəmiyyət bu düzəlişləri ilk tətbiq etdikdə, onları müqayisəli dövrün əvvəlində və ya sonra tanınan dividentlərin gəlir vergisi nəticələri ilə əlaqələndirir. Cəmiyyət hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Cəmiyyətin maliyyə hesabatlarına təsiri gözlənilmir.

*23 saylı MUBS Borclar üzrə məsrəflər*

Düzəlişlər aydınlaşdırır ki, müəssisə, ilkin olaraq müəyyənləşdirilmiş aktivin inkişaf etdirilməsi üçün götürülən borclara aktivin məqsədli istifadə və ya satılmağa hazırlanması üçün zəruri olan bütün fəaliyyətlər başa çatdıqdan sonra ümumi borcların bir hissəsi kimi yanaşır. Müəssisələr bu düzəlişləri tətbiq etdiyi ilk illik hesabat dövründə və ya sonrasında çəkilmiş borc xərclərinə şamil edir. Müəssisələr bu düzəlişləri erkən tətbiqinə icazə verilməklə, 01 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edir. Cəmiyyət hazırkı təcrübəsinin bu düzəlişlərə uyğun olduğu nəzərə alınaraq, Cəmiyyət maliyyə hesabatlarına təsiri gözlənilmir.

**Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər**

Aşağıdakı verilən dərc olunmuş, lakin 31 dekabr 2019-cu il tarixində bitən illik hesabat dövrü üçün tətbiqi icbari olmayan yeni və ya dəyişdirilmiş Standartlarının və Şərhlərin Cəmiyyət tərəfindən erkən tətbiqi həyata keçirilməmişdir.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)**

**17 saylı MHBS Sığorta müqavilələri** (Qüvvədə olma tarixi:01 yanvar 2021-ci il (01 yanvar 2022-ci llədək uzadıla bilər))

17 saylı MHBS 2017-ci ilin may ayında 4 saylı MHBS Sığorta Müqavilələri ilə əvəz edilmişdir. Standart hər hesabat dövründə təxminlərin yenidən ölçüldüyü cari ölçmə modelini tələb edir. Müqavilələr aşağıda göstərilən əsaslar vasitəsilə ölçülür:

- diskontlaşdırılmış ehtimal-orta çəkili pul vəsaitlərinin hərəkəti ilə,
- açıq risk tənzimlənməsi ilə; və
- qüvvədə olma müddəti ərzində gəlir kimi tanınan müqavilənin əldə edilməmiş mənfəətini təmsil edən müqavilə üzrə xidmət marjası (MXM).

Standart uçot dərəcələrinin dəyişməsini ya mənfəət və ya zərər haqqında hesabatda ya da birbaşa digər məcmu gəlirdə tanımaq arasında seçim etməyə imkan verir. Əldə olunan qərar sığortaçıların maliyyə aktivlərini 9 saylı MHBS-yə nə dərəcədə uyğun olduğunu əks etdirir. Əlavə olaraq, qeyri-həyat sığortaları üzrə qeyd olunan sadələşdirilmiş mükafat bölgüsü yanaşması, qısa müddətli müqavilələr üçün öhdəlik hüququna icazə verir. Həyat sığortası şirkətləri tərəfindən yazılmış bəzi müqavilələr üçün 'dəyişkən ödəniş haqqı yanaşması' adlanan ümumi ölçü modelində sığorta sahiblərinin əsas maddələrdən əldə olunan gəlirdə iştirak payı tanınır. "Dəyişkən ödəniş haqqı yanaşması" tətbiq edilərkən, əsas maddələrin ədalətli dəyərində olan dəyişikliklərindəki müəssisənin payı MXM-ə daxil edilir. Bu modeldən istifadə edən sığortaçıların nəticələri, ümumi modelə nisbətən daha az dəyişkən olur. Yeni qaydalar, sığorta müqavilələri və ya investisiya müqavilələri dərc edən bütün təşkilatların maliyyə hesabatlarına və əsas fəaliyyət göstəricilərinə təsir edəcəkdir.

Əhəmiyyətlilik meyarı – 1 saylı MUBS-ya və 8 saylı MUBS-ya düzəlişlər (Qüvvədə olma tarixi:01 yanvar 2020)). MUBSK 1 saylı MUBS Maliyyə Hesabatlarının Təqdim Edilməsi və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Maliyyə Hesabatı üçün Konseptual Çərçivə daxilində əhəmiyyətlilik anlayışını sabit şəkildə tərifləndirən 8 saylı MUBS Uçot Siyasəti, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Səhvlərə, məlumatın nə dərəcədə əhəmiyyətli olduğunu dəqiqləşdirən düzəlişləri, eləcə də 1 saylı MUBS-ya əsasən maddi əhəmiyyətli hesab olunmayan məlumatlara dair dəyişiklikləri tətbiq etdi. Düzəlişlər, xüsusilə:

- Gizli məlumatlara dair tövsiyələrin bu məlumatı təqdim etməmə və ya yanlış təqdim etmə hallarının eyni səviyyədə əhəmiyyətli olduğunu və müəssisənin əhəmiyyətliliyi bütövlükdə maliyyə hesabatları kontekstində qiymətləndirdiyini izah edir;
- Maliyyə hesabatlarının birbaşa yönəldildiyi "ümumi təyinatlı maliyyə hesabatlarının ilkin istifadəçiləri" ifadəsi maliyyə məlumatlarının əksəriyyəti üçün ümumi məqsədli maliyyə hesabatlarına əsaslanan "mövcud və potensial investor, borcverənlər və digər kreditorlar" olaraq təyin edilir.

***Biznesin tərifi - 3 saylı MHBS-yə düzəlişlər (Qüvvəyə minmə tarixi:01 yanvar 2020)***

Biznesin tərifinə edilmiş düzəliş birlikdə son məhsulu ərsəyə gətirmək bacarığına malik hərəkətlərin və substantiv prosedurların mövcudluğunu tələb edir. "son məhsul" anlayışına düzəliş müştərilərə təqdim olunan mal və xidmətlərə görə əldə olunan gəlirlər, investisiya gəlirləri və digər gəlir yaradan fəaliyyətlərə diqqəti yönəltməklə yanaşı azalan xərclər və digər kiçik iqtisadi fayda şəklində gəlirləri istisna edir. Düzəlişlərin, aktivlərin alınması kimi uçota alınan daha çox satınalmalara səbəb olacağı ehtimal edilir.

## 5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

***Maliyyə Hesabatı üçün Yenidən işlənmiş Konseptual Əsaslar*** *(Qüvvəyə minmə tarixi: 01 yanvar 2020)*

Birbaşa təsiri ilə standart tənzimləmə qərarlarında istifadə ediləcək və MUBSK tərəfindən yenidən işlənib nəşr edilmiş Konseptual Əsaslar aşağıdakı əsas dəyişiklikləri ehtiva edir:

- maliyyə hesabatı məqsədi kimi idarəetmənin əhəmiyyətinin artırılması;
- neytrallıq komponenti kimi ehtiyatlılığın bərpa edilməsi;
- hüquqi şəxs və ya təşkilatın bir hissəsi kimi, hesabat verəcək müəssisənin müəyyənləşdirilməsi;
- aktiv və öhdəlik anlayışlarına yenidən baxılması;
- tanınma üçün ehtimal həddinin çıxarılması və tanınmanın dayandırılmasına dair təlimat əlavə edilməsi;
- müxtəlif ölçü əsasları üzrə təlimat əlavə olunması; və
- mənfəət və ya zərərin əsas fəaliyyət göstəricisi olduğunu və prinsip etibarı ilə digər məcmu gəlirlərdəki gəlir və xərclərin maliyyə hesabatlarının aktuallığını və ya etibarlılığını artırdığı hallarda mənfəət və ya zərərdə tanınması.

Mövcud mühasibat uçotu standartlarından heç birində dəyişiklik edilməyəcəkdir. Bununla birlikdə, əməliyyatlar, hadisələr və şərtlər üçün uçot siyasətlərini müəyyənləşdirməkdə Konseptual Əsaslara etibar edən təşkilatlar mühasibat uçotu standartları ilə başqa cür əlaqələndirilməyən, yenidən işlənmiş Konseptual Əsasları 2020-ci il 01 yanvar tarixindən tətbiq etməli olacaq. Bu təşkilatlar uçot siyasətlərinin yenidən işlənmiş Konseptual Əsaslara hələ də uyğun olub olmadığını müəyyən etməlidirlər.

***İnvestor və onun ortağı və ya müştərək müəssisə arasında aktivlərin satılması və ya əvəzsiz verilməsi - 10 saylı MHBS-yə və 28 saylı MHBS-yə düzəlişlər*** *(2015-ci ilin dekabr ayında* MUBSK *bu düzəlişin tətbiqi tarixini* MUBSK *kapital metodu ilə bağlı tədqiqat layihəsini yekunlaşdıranadək təxirə salmağı qərara aldı.)*

MUBSK 10 saylı MHBS maliyyə hesabatlarına və 28 saylı MUBS-a ortaq və müştərək müəssisələrə investisiya qoyuluşlarına məhdud dəyişikliklər etmişdir. Dəyişikliklər investor və onun ortaq və ya müştərək müəssisələri arasında aktivlərin satışına və ya əvəzsiz ötürülməsinə dair uçot qaydalarını aydınlaşdırır. Onlar təsdiq edir ki, bu zaman uçot siyasəti qeyri-monetar aktivlərin şərikli və ya ortaq müəssisəyə satılması və ya əvəzsiz olaraq verilməsi əməliyyatının "biznes" tərkibli olub olmamasından asılıdır (3 saylı MHBS-də müəyyənləşdirildiyi kimi). Qeyd olunan qeyri-monetar aktivlər biznes tərkiblidirsə, investor aktivlərin satışından və ya əvəzsiz ötürülməsindən mənfəət və ya zərər tanıyacaqdır. Biznesi ehtiva etmirsə, mənfəət və ya zərər investor tərəfindən ortaq və ya müştərək müəssisədəki digər maraqları həddində tanınır. Düzəlişlər prospektiv şəkildə tətbiq olunur.

## 6. PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| Banklarda olan vəsaitlər | 20,898,946 | 20,689,444 |
| ƏDV deposit hesabı | 8,390 | 31,510 |
| **Cəmi pul və pul vəsaitlərinin ekvivalentləri** | **20,907,336** | **20,720,954** |

## 7. MƏHDUDİYYƏT QOYULMUŞ PUL VƏSAİTLƏRİ

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 1,044,642 | - |
| **Cəmi məhdudiyyət qoyulmuş pul vəsaitləri** | **1,044,642** | **-** |

Cəmiyyət əsas vəsaitlərin tikintisi və qurraşdırılması ilə əlaqədar xarici şirkətlər tərəfindən görülən iş və ya xidmətlərin ödənişini geri çağrılmayan akkreditiv üsulundan istifadə etməklə həyata keçirir. Bu məqsədlə Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə bank hesablarında 1,044,642 AZN ( 31 dekabr 2018-ci il; 0 AZN) məbləğində məhdudiyyət qoyulmuş vəsait mövcuddur.

## 8. MÜDDƏTLİ ƏMANƏTLƏR

26 noyabr 2018-ci il tarixinə kimi Cəmiyyətin cəmi 3,000,000 AZN məbləğində "Xalq Bank" ASC-də yerli bank hesabında yerləşdirilmiş faiz yaradan əmanət hesabı olmuşdur. 2018-ci il ərzində Cəmiyyət müddətli əmanətlərdən 110,667 AZN vəsait əldə etmişdir.

## 9. MAL VƏ MATERİAL EHTİYATLARI

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-cı il tarixinə** |
|---|---|---|
| Bitməmiş istehsal | 6,680,338 | 2,498,876 |
| Xammal | 1,948,562 | 873,528 |
| Hazır məhsul | 1,419,600 | 641,481 |
| İşçi forması | 79,195 | 77,605 |
| Digər ehtiyatlar | 624,063 | 452,249 |
| **Cəmi mal və material ehtiyatları** | **10,751,758** | **4,543,738** |

31 dekabr 2019-cu il tarixinə 1,948,562 AZN (31 dekabr 2018-ci il: 873,528 AZN) dəyərində xammal materialları əldə edilmiş və mövcud yerinə və vəziyyətinə gətirilmiş materiallar və əməliyyatlar üçün istifadə olunmayan materiallar daxildir.
31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin bitməmiş istehsalına yuyulmamış hazır xalçalar, işçilik xərcləri, əsas vəsaitlərin köhnəlmə xərci və toxunma prosesində olan mal və materiallar daxildir.

## 10. QABAQCADAN ÖDƏMƏLƏR

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənilən avanslar | 227,502 | 2,405,247 |
| Digər qabaqcadan ödəmələr | 90,317 | 13,859 |
| **Cəmi qabaqcadan ödəmələr** | **317,819** | **2,419,106** |

## 11. DİGƏR CARİ AKTİVLƏR

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| İşçilərə ödənilmiş avanslar | 2,684 | 3,384 |
| **Cəmi digər cari aktivlər** | **2,684** | **3,384** |

## 12. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| *Azərbaycan Manatı ilə* | Əmlak | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Kompüter və ofis avadanlıqları | Digər əsas vəsaitlər | Tikilməkdə olan tikililər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | | |
| **31 dekabr 2017-ci il tarixinə ilkin dəyəri** | **14,450,733** | **885,881** | **57,165** | **327,108** | **215,122** | **-** | **15,936,009** |
| Əlavələr | 16,452,634 | 883,257 | 2,134,560 | 1,308,710 | 339,463 | 16,714,066 | 37,832,690 |
| Təsnifatlaşdırma | - | - | - | (2,650) | 2,650 | - | - |
| **31 dekabr 2018-ci il tarixinə ilkin dəyəri** | **30,903,367** | **1,769,138** | **2,191,725** | **1,633,168** | **557,235** | **16,714,066** | **53,768,699** |
| Əlavələr | - | 352,626 | - | 216,558 | 406,639 | 26,609,077 | 27,584,900 |
| Təsnifatlaşdırma | 15,997,731 | - | - | - | - | (15,997,731) | - |
| **31 dekabr 2019-cu il tarixinə ilkin dəyəri** | **46,901,098** | **2,121,764** | **2,191,725** | **1,849,726** | **963,874** | **27,325,412** | **81,353,599** |
| **Yığılmış köhnəlmə** | | | | | | | |
| **31 dekabr 2017-ci il tarixinə yığılmış köhnəlmə** | **(197,964)** | **(92,528)** | **(9,113)** | **(81,788)** | **(31,450)** | | **(412,843)** |
| Köhnəlmə xərci | (2,149,378) | (109,545) | (285,085) | (112,536) | (52,403) | - | (2,708,947) |
| Təsnifatlaşdırma | - | - | - | 543 | (543) | - | - |
| **31 dekabr 2018-ci il tarixinə yığılmış köhnəlmə** | **(2,347,342)** | **(202,073)** | **(294,198)** | **(193,781)** | **(84,396)** | **-** | **(3,121,790)** |
| Köhnəlmə xərci | (2,555,097) | (175,967) | (474,382) | (370,597) | (144,958) | - | (3,721,001) |
| **31 dekabr 2019-cu il tarixinə yığılmış köhnəlmə** | **(4,902,439)** | **(378,040)** | **(768,580)** | **(564,378)** | **(229,354)** | **-** | **(6,842,791)** |
| **31 dekabr 2018-ci il tarixinə balans dəyəri** | **28,556,023** | **1,567,067** | **1,897,527** | **1,439,387** | **472,839** | **16,714,066** | **50,646,909** |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **41,998,659** | **1,743,724** | **1,423,145** | **1,285,348** | **734,520** | **27,325,412** | **74,510,808** |

Cəmiyyətin Füzuli rayon Horadiz şəhərindəki emalatxanasından sonra 2017-ci il ərzində istifadəyə verdiyi Şəmkir, Xaçmaz, Ağdam, Qəbələ, İsmayıllı, Tovuz, Ağstafa, Quba, Qazax, 2018-ci il ərzində Goranboy, Biləsuvar, Abşeron (Qobu-Hökməli), Tərtər,Şabran, Kürdəmir, Qobustan, Lənkəran şəhərlərində və Naxçıvan Muxtar Respublikasında yerləşən emalatxanalarına əlavə olaraq 2019-cu il ərzində İsmayıllı 2 və Sabunçu emalatxanalarının və Qobustan, Şabran, Bərdə, Sabirabad, Naxçıvan Muxtar Respublikasında yerləşən Regional Yun və Təbii Boyaq Tədarük Məntəqələrinin tikintiləri başa çatmış və fəaliyyətlərinə başlamışdır.

## 13. QEYRİ-MADDİ AKTİVLƏR

| *Azərbaycan Manatı ilə* | **Qeyri-maddi aktivlər** |
|---|---|
| **İlkin dəyəri** | |
| **31 dekabr 2017-ci il tarixinə ilkin dəyəri** | **10,835** |
| Əlavələr | 675 |
| **31 dekabr 2018-ci il tarixinə ilkin dəyəri** | **11,510** |
| Əlavələr | 500 |
| **31 dekabr 2019-cu il tarixinə ilkin dəyəri** | **12,010** |
| **Yığılmış amortizasiya** | |
| **31 dekabr 2017-ci il tarixinə yığılmış amortizasiya** | **(857)** |
| 2018-ci il üzrə hesablanmış amortizasiya | (1,033) |
| **31 dekabr 2018-ci il tarixinə yığılmış amortizasiya** | **(1,890)** |
| 2019-cu il üzrə hesablanmış amortizasiya | (993) |
| **31 dekabr 2019-cu il tarixinə yığılmış amortizasiya** | **(2,883)** |
| **31 dekabr 2018-ci il tarixinə balans dəyəri** | **9,620** |
| **31 dekabr 2019-cu il tarixinə balans dəyəri** | **9,127** |

## 14. MƏNFƏƏT VERGİSİNDƏN BAŞQA ÖDƏNİLMƏLİ VERGİLƏR

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| Sosial vergi borcları | 86,496 | 53,558 |
| Şəxsi gəlir vergisi | 75,784 | 54,673 |
| **Cəmi mənfəət vergisindən başqa digər ödənilməli vergilər** | **162,280** | **108,231** |

## 15. NİZAMNAMƏ KAPİTALI

Cəmiyyətin nizamnamə kapitalı Azərbaycan Respublikası Hökumətinə ("Hökumət") məxsus və hər birinin nominal dəyəri 1 (bir) AZN olan 15 milyon səhmdən ibarətdir..

| | **2019** | | | **2018** | | |
|---|---|---|---|---|---|---|
| *Azərbaycan Manatı ilə* | **Səhm** | **%** | **Məbləğ** | **Səhm** | **%** | **Məbləğ** |
| Azərbaycan Respublikası | 15,000,000 | 100% | 15,000,000 | 15,000,000 | 100% | 15,000,000 |
| **Cəmi nizamnamə kapitalı** | **15,000,000** | **100%** | **15,000,000** | **15,000,000** | **100%** | **15,000,000** |

## 16. ƏLAVƏ KAPİTAL QOYULUŞU

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli 890 nömrəli, 13 iyul 2019-cu il tarixli 1368 nömrəli və 29 dekabr 2019-cu il tarixli 1740 nömrəli, 22 yanvar 2018-ci il tarixli 3593 nömrəli, "Azərbaycan Respublikasının 2019-cu və 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü" Sərəncamlarına əsasən aşağıda qeyd olunan layihələr üzrə ümumilikdə 102,082,291 AZN vəsait ayrılmışdır.

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixində bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| Yeni emalatxanaların tikintisi, infrastruktur yaradılması, avadanlıq və dəzgahlarla təchizatı işlərinin başa çatdırılması | 5,009,976 | 20,880,253 |
| Yunəyirici-boyaq fabrikinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması, layihələndirilməsi, tikintisi və avadanlıqlarla təchizatı | 17,535,600 | 10,000,000 |
| Yun və boyaq tədarükü məntəqələrinin layihə-smeta sənədlərinin hazırlanması, avadanlıq və iş alətləri ilə təmin olunması | 5,000,000 | 1,500,000 |
| " AZƏRXALÇA " ASC-nin inzibati binasının və emal mərkəzinin layihə smeta sənədlərinin hazırlanması | 1,000,000 | - |
| Nəqliyyat vasitələrin alınması | 1,392,202 | 1,961,460 |
| Cəmiyyətin nizamnamə kapitalının artırılması | 6,665,000 | - |
| **Cəmi əlavə kapital qoyuluşu** | **34,102,778** | **37,841,713** |

## 17. SATIŞ

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixində bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| **Xalça satışı** | **310,554** | **424,095** |
| İşçilik xərcləri | (237,470) | (334,074) |
| Xammal | (101,816) | (118,068) |
| Köhnəlmə xərci | (29,767) | (69,149) |
| Digər xərclər | (12,838) | (18,758) |
| **Satışın maya dəyəri** | **(381,891)** | **(540,049)** |
| **Cəmi ümumi zərər** | **(71,337)** | **(115,954)** |

## 18. SATIŞ VƏ PAYLAMA XƏRCLƏRİ

Satış və paylama xərclərinə 2019-cu il ərzində 22,156 AZN daxildir. (2018: 89,567)

## 19. İNZİBATİ VƏ ƏMƏLİYYAT XƏRCLƏRİ

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixində bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| Köhnəlmə və amortizasiya xərcləri | (3,445,287) | (2,569,855) |
| Əmək haqqı | (685,771) | (510,187) |
| İcarə xərcləri | (265,901) | (263,299) |
| Sosial sığorta xərcləri | (158,679) | (118,313) |
| Sığorta xərcləri | (128,550) | (32,040) |
| Ofis ləvazimatları | (97,199) | (179,677) |
| Nəqliyyat xərcləri | (88,313) | (59,415) |
| Kommunal xərclər | (44,266) | (35,283) |
| Bank komissiyaları | (35,562) | (22,328) |
| Mənfəət vergisindən başqa vergi xərcləri | (27,424) | (27,424) |
| Peşəkar xidmətlər | (17,000) | (15,000) |
| Ezamiyyət xərcləri | (15,165) | (19,673) |
| Digər xərclər | (104,751) | (61,222) |
| **Cəmi inzibati və əməliyyat xərcləri** | **(5,115,454)** | **(3,913,716)** |

## 20. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dən fərqlənə bilər.
Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Cəmiyyət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.
Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Mənfəət vergisi aşağıdakı komponentlərdən ibarətdir :

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixində bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixində bitən il üzrə** |
|---|---|---|
| Cari mənfəət vergisi | - | (11,067) |
| Təxirə salınmış vergi gəliri | - | (133,361) |
| **İl ərzində olan mənfəət vergisi xərci** | **-** | **(144,428)** |

## 20. MƏNFƏƏT VERGİSİ (Davamı)

31 dekabr 2019 və 31 dekabr 2018-ci il tarixlərinə başa çatmış dövr üzrə vergi gəliri və uçot zərəri arasında münasibətlər aşağıda izah olunur:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər** | | |
| Gələn dövrə keçirilmiş vergi zərərləri | 4,130,335 | 2,323,737 |
| Əmlak, tikili və avadanlıqlar | 4,732,062 | 1,895,613 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **8,862,397** | **4,219,350** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər** | | |
| Qeyri-maddi aktivlər | (881) | (758) |
| Mal və material ehtiyatları | (215,717) | (215,059) |
| Tanınmamış təxirə salınmış vergi aktivi | (8,645,799) | (4,003,533) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(8,862,397)** | **(4,129,350)** |
| **Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər** | - | - |
| **Qüvvədə olan vergi dərəcəsi ilə (20%) xalis təxirə salınmış mənfəət vergi aktivi** | - | - |

Cəmiyyətin gəlirinə tətbiq edilən mənfəət vergisi 20% (2018: 20%) dərəcəsi ilə hesablanır. 31 dekabr 2019-cu və 31 dekabr 2018-ci il tarixlərinə gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixinə bitən il üzrə** |
|---|---|---|
| **Vergidən əvvəlki zərər:** | 5,341,692 | 4,010,951 |
| Qanunla müəyyən edilmiş vergi dərəcəsi | 20% | 20% |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri vergi | 1,068,337 | 802,189 |
| Müddətli əmanətlər üzrə maliyyə gəliri ilə bağlı mənbəyində tutulan vergi | - | (11,067) |
| Gəlirdən çıxılmayan xərclər | (142,276) | (134,844) |
| Tanınmamış təxirə salınmış vergi aktivlərində dəyişiklik | (926,061) | (800,706) |
| **Mənfəət vergisi xərci** | - | **(144,428)** |

## 21. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Cəmiyyətin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.
31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda göstərilir.

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə** | **31 dekabr 2018-ci il tarixinə** |
|---|---|---|
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 8,390 | 31,510 |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | 162,280 | 108,231 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 400 | 400 |

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixləri üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Azərbaycan Manatı ilə* | **31 dekabr 2019-cu il tarixinə bitən il üzrə** | **31 dekabr 2018-ci il tarixinə bitən il üzrə** |
|---|---|---|
| Satışdan gələn gəlir | 92,000 | 393,748 |
| Sosial siğorta xərcləri | (158,679) | (118,313) |
| Mənfəət vergisindən başqa vergi xərcləri | (24,853) | (27,424) |
| Kommunal xərclər | (44,266) | (35,283) |
| İcarə xərcləri | (265,901) | (263,299) |

## 22. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində Cəmiyyət müştərilərinin tələbatlarını qarşılamaq məqsədilə balansdan kənar risklər yarada biləcək maliyyə alətlərində tərəf kimi çıxış edir. Müxtəlif kredit risklərinə malik bu alətlər maliyyə vəziyyəti hesabatında öz əksini tapmamışdır.

Qarşı tərəfin öhdəliklərini yerinə yetirə bilmədikləri hallarda, girov və zəmanətlərin dəyərsiz olduğu zaman şərti öhdəliklər və təəhhüdlər üzrə Cəmiyyətin maksimal kredit itkisi, bu maliyyə alətlərini yaradan müqavilələr üzrə göstərilən məbləğlər şəklində təqdim edilir.

Cəmiyyət ehtiyatlar üzrə istifadə olunan eyni kredit nəzarət və idarəetmə siyasətindən istifadə edir.

***Vergi qanunvericiliyi.*** Cəmiyyətə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində, Müəssisəyə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqeləri qorunacaqdır. Müvafiq olaraq, 31 dekabr 2018-ci il tarixinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

**Kapital məsrəfləri ilə bağlı öhdəliklər**

2019-cu il ərzində Cəmiyyətə Emalatxana, Regional Yun və Təbii Boyaq Tədarük məntəqələri və Yunəyirici-Boyaq fabrikinin tikintisi və digər məqsədlər üçün əlavə kapital qoyuluşu edilmişdir (Qeyd 16). Cəmiyyət kapital ilə bağlı məsrəflərini təyinatına uyğun olaraq aparır.

## 22. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR (Davamı)

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Müəssisə rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmamışdır.

***Əməliyyat lizinqi ilə bağlı öhdəliklər.*** 31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin ləğv oluna bilməyən əməliyyat lizinq müqaviləsi üzrə əhəmiyyətli öhdəlikləri olmamışdır.

## 23. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri MHBS 7 "Maliyyə Alətləri: Məlumatın Açıqlanması" və MHBS 13 "Ədalətli Dəyərin Ölçülməsi" standartlarına uyğun olaraq təqdim edilmişdir. Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə vasitəsinin mübadilə edilə bildiyi məbləği təşkil edir və ən yaxşı olaraq bazar qiyməti ilə sübut edilir. Cəmiyyətin maliyyə alətlərinin böyük hissəsinin satışı üçün fəal bazarın mövcud olmamasından, mühakimə risklərə aid edilə bilən mövcud iqtisadi şərait və konkret risklər əsasında ədalətli dəyərdə aparılmalıdır.. Burada təqdim edilən qiymətləndirmələr mütləq Cəmiyyətin tam və ya qismən alətinin bazar birjasında həyata keçirə biləcəyi məbləğin göstəricisi deyil. Maliyyə alətlərinin qalıq dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

Maliyyə aktiv və öhdəliklərinin ədalətli dəyəri ilə balans üzrə qalıq dəyərləri arasındakı müqayisə aşağıda göstərilmişdir:

| | **31 dekabr 2019-cu il tarixinə** | | **31 dekabr 2018-ci il tarixinə** | |
|---|---|---|---|---|
| | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 20,898,946 | 20,898,946 | 20,689,444 | 20,689,444 |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | (162,280) | (162,280) | (108,231) | (108,231) |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | (476,335) | (476,335) | (91,007) | (91,007) |

31 dekabr 2019-cu il tarixinə 8.390 AZN ( 31 dekabr 2018; 31,510 AZN) məbləğində ƏDV depozit hesabı pul və pul vəsaitlərinə daxil deyil.

## 24. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

***Maliyyə riski amilləri.*** Fəaliyyətin adi gedişində Cəmiyyət alınan və satılan malların dəyişkən qiymətləri, digər xammalların qiymətləri, valyuta məzənnələri və faiz dərəcələri nəticəsində yaranan bazar riskləri ilə üzləşir. Qiymətlərdəki dəyişikliklərdən asılı olaraq bazar qiymətlərindəki bu cür dəyişikliklər Cəmiyyətin maliyyə vəziyyətinin dəyişməsinə səbəb ola bilər. Cəmiyyətin ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Cəmiyyətin maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Cəmiyyətin əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. Maliyyə riskinin vacib komponentləri likvidlik riski, xarici valyuta riski, faiz dərəcəsi riski və kredit riskidir.

***Likvidlik riski.*** Likvidlik riski aktiv və öhdəliklərin ödəmə müddətlərinin uzlaşmadığı hallarda ortaya çıxır. Likvidliyin idarə edilməsinə Cəmiyyətin yanaşması həm adi, həm də qeyri-adi şəraitdə Cəmiyyətin nüfuzuna qəbul edilməyən zərər və ya risk zərəri vurmamaqla, öhdəliklərin müddəti başa çatdıqda onların likvidliyini daim təmin etməkdən ibarətdir. Rəhbərlik, 31 dekabr 2019-cu il tarixində Cəmiyyətin cari ödəmə strukturunun hər hansı bir əhəmiyyətli likvidlik riskinə məruz qalmadığını hesab edir.

Aşağıdakı cədvəldə Cəmiyyətin maliyyə aktiv və öhdəlikləri ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Diskontlaşmanın təsiri əhəmiyyətli olmadığı üçün 1 il ərzində ödənilməli qalıqlar onların balans dəyərinə bərabərdir.

## 24. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (Davamı)

Likvidlik risklərinin 31 dekabr 2019-cu il tarixinə təhlili aşağıdakı cədvəldə göstərilir.

| *Azərbaycan Manatı ilə* | **1 aya qədər** | **1 aydan 6 aya dək** | **6 aydan 12 aya dək** | **12 aydan 5 ilə dək** | **31 dekabr 2019-cu il tarixinə Cəmi** |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 20,898,946 | - | - | - | 20,898,946 |
| **Cəmi maliyyə aktivləri** | **20,898,946** | - | - | - | **20,898,946** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | 162,280 | - | - | - | 162,280 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 476,335 | - | - | - | 476,335 |
| **Cəmi maliyyə öhdəlikləri** | **638,615** | - | - | - | **638,615** |
| **Xalis Likvidlik aralığı 31 dekabr 2019- cu il tarixinə** | **20,260,331** | - | - | - | **20,260,331** |
| **Yığılmış likvidlik aralığı** | **20,260,331** | **20,260,331** | **20,260,331** | **20,260,331** | |

8.390 AZN ( 31 dekabr 2018; 31,510 AZN) məbləğində ƏDV depozit hesabı pul və pul vəsaitlərinə daxil deyil.

Likvidlik risklərinin 31 dekabr 2018-ci il tarixinə təhlili aşağıdakı cədvəldə göstərilir.

| *Azərbaycan Manatı ilə* | **1 aya qədər** | **1 aydan 6 aya dək** | **6 aydan 12 aya dək** | **12 aydan 5 ilə dək** | **31 dekabr 2018-ci il tarixinə Cəmi** |
|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 20,689,444 | - | - | - | 20,689,444 |
| **Cəmi maliyyə aktivləri** | **23,440,106** | - | - | - | **26,440,106** |
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | 108,231 | - | - | - | 108,231 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 91,007 | - | - | - | 91,007 |
| **Cəmi maliyyə öhdəlikləri** | **199,238** | - | - | - | **199,238** |
| **Xalis Likvidlik aralığı 31 dekabr 2018- ci il tarixinə** | **20,490,206** | - | - | - | **20,490,206** |
| **Yığılmış likvidlik aralığı** | **20,490,206** | **20,490,206** | **20,490,206** | **20,490,206** | |

***Xarici valyuta riski.*** Xarici valyuta riski, maliyyə alətlərinin dəyərinin xarici valyuta məzənnələrindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Xarici valyuta ilə ifadə edilmiş aktivlər (banklardakı depozitlər və debitor borcları) və öhdəliklər (kredit borcları və digər öhdəliklər) xarici valyuta riskini yaradır. Xarici valyuta riskini idarə etmək üçün Müəssisə hər hansı rəsmi prosedurlara malik olmasa da, rəhbərlik fəaliyyət göstərdiyi sektorda baş verən tendensiyalardan kifayət qədər məlumatlıdır və bu cür risklərin azaldılması üçün bəzi tədbirlər görmüşdür.

## 24. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ (Davamı)

Cəmiyyətin xarici valyuta məzənnə dəyişikliyi riskinə məruz qalma vəziyyəti 31 dekabr 2019-cu il tarixinə aşağıda göstərilmişdir:

| *Azərbaycan Manatı ilə* | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2019-cu il cəmi |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 20,688,243 | 42,506 | 168,197 | 20,898,946 |
| **Cəmi maliyyə aktivləri** | **20,688,243** | **42,506** | **168,197** | **20,898,946** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | 162,280 | - | - | 162,280 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 476,335 | - | - | 476,335 |
| **Cəmi maliyyə öhdəlikləri** | **638,615** | - | - | **638,615** |
| **Açıq balans vəziyyəti** | **20,049,628** | **42,506** | **168,197** | **20,260,331** |

Cəmiyyətin xarici valyuta məzənnə dəyişikliyi riskinə məruz qalma vəziyyəti 31 dekabr 2018-ci il tarixinə aşağıda göstərilmişdir:

| *Azərbaycan Manatı ilə* | AZN | ABŞ dolları | Avro | 31 dekabr 2018-ci il cəmi |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 20,686,906 | 1,812 | 726 | 20,689,444 |
| **Cəmi maliyyə aktivləri** | **20,686,906** | **1,812** | **726** | **20,689,444** |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Mənfəət vergisindən başqa ödənilməli vergilər | 108,231 | - | - | 108,231 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | 91,007 | - | - | 91,007 |
| **Cəmi maliyyə öhdəlikləri** | **199,238** | - | - | **199,238** |
| **Açıq balans vəziyyəti** | **20,487,668** | **1,812** | **726** | **20,490,206** |

**Coğrafi konsentrasiya**

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin bütün maliyyə aktivləri və öhdəlikləri Azərbaycan Respublikasında yerləşir.

***Kapital risklərinin idarə olunması.*** Kapital nizamnamə kapitalı və əlavə kapital qoyuluşu və yığılmış zərərdən ibarət olub, hazırkı maliyyə hesabatlarında kapitala aid edilir. Kapitalın idarə olunmasında Cəmiyyətin məqsədi səhmdar üçün gəlirlərin və digər maraqlı tərəflər üçün ödənişlərin təmin edilməsi və kapital xərclərinin azaldılması məqsədilə, optimal kapital strukturunun saxlanılması üçün fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini qoruyub saxlamaqdır. Cəmiyyətdən kapital ilə bağlı konkret normativ əmsallara riayət etmək tələb olunmur.

## 25. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Azərbaycan Respublikası Baş Prokurorluğunun Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 09 yanvar 2021-ci il tarixində aparılmış istintaq-əməliyyat tədbirləri nəticəsində ciddi qanun və maliyyə pozuntuları həyata keçirərək "Azərxalça" ASC-nin qanuni mənafelərinə mühüm zərər vurmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr əsasında həbs edilən Cəmiyyətin idarə heyətinin sədri Muradov Vidadi Aydın oğlu 5 noyabr 2021-ci il tarixində vəfat etmişdir.

Məhkəmə işləri 22 dekabr 2021-ci il tarixli 3(060)-75/2022 nömrəli, 07 yanvar 2022-ci il tarixli 3(005)-128/2022 nömrəli məhkəmə işləri davam etdirilir.